**NBL Fish Oil Jr.®**
Uşaq sağlamlığı üçün təbii məhsul
Bioloji fəallığa malik qida əlavəsinə aid təlimat

NBL Fish Oil Jr.® tərkibində eykozapentayen və dokozaheksayen omeqa-3 yağ turşuları vardır. Balıq yağı omeqa-3 yağ turşularının pəhriz qaynağı olaraq, bədənin funksiyalarının bir çoxunu, əzələ fəaliyyətindən hüceyrə böyüməsinə qədər dəstəkliyən vacib bir substratdır. Omega-3 yağ turşuları qidadan əldə edilir. Onlar orqanizmdə sintez olunmur.

**Tərkibi**
10 ml balıq yağın tərkibinə daxildir:
820 mq Omeqa-3
- 390 mq EPT (Eykozapentayen turşusu)
- 260 mq DHT (Dokozaheksayen turşusu)

Tərkibində həmçinin deionizəolunmuş su, emulqatorlar: ksilitol və polisorbat 80; antioksidant: tokoferol ilə zənginləşdirilmiş ekstrakt; yapışqanlığın gücləndiricisi: quar qartanı; aromatizator: manqo aromatizatoru; stabilizator: kalsium asetat; turşuluğun tənzimləyicisi: limon turşusu; konservantlar: kalium sorbat və natrium benzoat; yapışqanlığın gücləndiricisi: ksantan qartanı; aromatizator: şaftalı aromatizatoru; şirinləşdirici: sukraloza vardır.

**İstifadəsinə göstərişlər**
NBL Fish Oil Jr.® aşağıdaki hallarda kömək edir və dəstəkliyici təsir göstərir:
- Uşağın ümumi inkişafı.
- Diqqət defisiti və hiperaktivlik sindromu.
- Uşağın kognitiv inkişafı.
- Göz xəstəlikləri.
- Uşağın qavrama bacarığının və davranışın yaxşılaşması.
- Allergik xəstəliklər.

**Əks göstərişlər**
Tərkibindəki hər hansı bir komponentə qarşı yüksək həssaslıq.

**İstifadə qaydası və dozası**
4-14 yaş arası uşaqlar üçün gündə bir dəfə 10 ml, əsasən, yeməkdən sonra qəbul etmək tövsiyə olunur.

**Xüsusi göstərişlər və ehtiyyat tədbirləri**
Tövsiyə olunan gündəlik dozanı aşmayın.
Bioloji fəallığa malik qida əlavələri normal qida rasionunu əvəz edə bilməz.
Xəstəliklərin profilaktikası və müalicəsi üçün istifadə olunmur.
Xəstəlik və ya dərman qəbulu zamanı, hamiləlik və laktasiya dövründə istifadəsi üçün həkiminizlə məsləhətləşin.
*Qoruyucu atmosferdə qablaşdırılıb.*
İstifadədən əvvəl çalxalamaq lazımdır.
Gündəlik qəbul dozası bədən kütləsinin 50 mq/kq-dan çox olmamalıdır.
Doza həddinin aşılması işlədici təsir göstərə bilər.

**Tərkibində şirinləşdirici komponent var.**

**Buraxılış forması**
NBL Fish Oil Jr.® 150 ml plastik qapaqlı kəhrəba rəngli şüşə flakonda 15 ml ölçü qapaqcıq və içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.
**Dərman vasitəsi deyil.**

**Saxlanma şəraiti**
25 °C-dən aşağı temperaturda və orijinal qutusunda saxlamaq lazımdır.
Uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.
Qapağı açılandan sonra kip bağlayıb soyuducuda saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
3 il.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Lisenziya sahibi**
Nobel İlaç Sanayii ve Ticaret A.Ş.
İstanbul, Türkiyə

**İstehsalçı**
Vefa İlaç Sanayii ve Ticaret Ltd Şti.
İstanbul, Türkiyə

**Mənşə ölkəsi**
Türkiyə

(Balıq yağı istehsalçı ölkə məhsulun istehsalçı ölkəsindən fərqlənir)